**ŞƏHANƏ ƏRŞADLI**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**hacirehimov224@gmail.com**

# KURİKULUM ÜZRƏ ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ BƏDİİ ƏSƏRLƏRİN TƏHLİLİNƏ METODİK YANAŞMALAR

***Açar sözlər***: ədəbiyyat, dərs, şagird, təhlil, əsər, təlim, standart, tədqiqat, interaktiv, metodik, məktəb
***Ключевые слова***: литература, урок, студент, анализ, работа, учеба, стандарт, исследование, интерактив, методический, школа
***Key words:*** literature, lesson, student, analyzing, work, study, standard, research, interactive, methodical, school

Ədəbiyyat fənn kurikulumu üzrə ayrı-ayrı siniflərdə təlimin təşkilinə ayrılmış dərs saatlarının xeyli hissəsi bilavasitə bədii əsərlərin təhlili üçün nəzərdə tutulmuşdur. Ədəbiyyat fənn kurikulumunda qeyd edilir ki, Ədəbiyyatın məktəbdə öyrədilməsi zamanı bədii zövqün formalaşdırılması diqqət mərkəzində saxlanılır, şagirdlərin həyatda, insanda olan gözəlliyi duymaq, qiymətləndirmək bacarığı inkişaf etdirilir.

Ümumtəhsil məktəblərində ədəbiyyat təliminin məqsədi bədii ədəbiyyat nümunələrini, tarixi-ədəbi prosesi öyrənmək, təhlil etmək, qiymətləndirmək bacarığını formalaşdırmaqla şagirdlərin dünyagörüşünü zənginləşdirmək, mənəvi-estetik inkişafını təmin etmək, nitq mədəniyyətinə yiyələnmələrinə nail olmaqdır. Bu məqsədlə aşağıdakı vəzifələrin həyata keçirilməsi təmin edilir. Ümumi orta təhsil səviyyəsində milli və dünya ədəbiyyatından seçilmiş kamil sənət nümunələri vasitəsilə məktəblilərdə sözə, söz sənətinə həssas, bədii-emosional münasibət formalaşdırılır, təhlil, dəyərləndirmə, fikirlərini şifahi və yazılı çatdırmaq bacarığı inkişaf etdirilir. Tam orta təhsil pilləsində Ümumtəhsil məktəblərində ədəbiyyatın təlim fənni kimi məzmununun əsasını Azərbaycan ədəbiyyatının kamil nümunələrinin, eləcə də dünya ədəbiyyatından seçmələrin oxusu və öyrənilməsi təşkil edir. Ədəbi əsərlərin qavranılması, təhlili tarixi və ədəbi-nəzəri biliklərə, bacarıqlara əsaslanmaqla həyata keçirilir. [1 ]

Kurikulumda nəzərdə tutulur ki, ədəbiyyat dərslərində şagirdlərə şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətlərini, xarakterik xüsusiyyətlərini konkret nümunələrlə izah etmək, öz fikirlərini müqayisələr aparmaqla əsaslandırmaq, ədəbi əsərləri məzmun və ideya istiqamətinə, sənətkarlıq cəhətlərinə, obrazların səciyyəsinə görə təhlil etmək bacarığı aşılanmalıdır.

Ədəbiyyat fənn kurikulumunda 1.2.2., 1.2.2., 1.2.3., 1.2.4., standartları bədii mətnin təhlili üzrə işin əsas istiqamətlərini müəyyənləşdirir. Belə ki,

təhlil dərsində müvafiq sual və tapşırıqlar üzrə işlərin təşkili vasitəsilə əsərin mövzu və ideyasının, obrazlar sisteminin, başlıca problemin, bədii təsvir və ifadə vasitələrinin, növ və janr xüsusiyyətlərinin təhlili təmin edilməlidir.

Azərbaycan məktəblərində ədəbiyyat tədrisinin inkişaf tarixindən aydın olur ki, bu sahədə xeyli metodik vəsait hazırlanmış, çap olunaraq müəllimlərin istifadəsinə verilmişdi: Həmin vəsaitlərdə bədii əsərin təhlilinə xüsusi bölmələr ayrılmışdır. Müəllimlərin istifadəsində olan metodik vəsairlər diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, bədii əsərin təhlilində müxtəlif yanaşmalar özünü göstərir. Ş.Mikayılov və A.Bəkirovanın tədqiqatında bədii əsərlərin təhlili ilə bağlı aparılan işlər konkretləşdirilir:" Məktəb təcrübəsində indiki şəraitdə ədəbiyyat tədrisi qarşısında qoyulan məqsəd və vəzifələri nəzərə alınaraq bədii əsərin təhlili zamanı aşağıdakı cəhətlər diqqət mərkəzində saxlanmalıdır:

1. Əsərin janr xüsusiyyətlərinin nəzərə alınması;
2. Məzmunla formanın uyğunluğu;
3. Tip və tipiklik;
4. Hadisə və obraz (surət);
5. Süjet və kompozisiya;
6. Dil yə üslub;
7. Əsərdən çıxarılan ideya-estetik nəticə.

Əlbəttə, həyat hadisələrinin bədii-obrazlı inikası o İm əsərləri formasına, üslubuna, həcminə görə başqa şəkildə də qruplaşdırmaq olar, lakin göstərilən şəkildə qruplaşdırmaq şagirdlərin fikri fəallığına, sərbəst düşünmələrinə və müstəqil fikir söyləmələrinə optimal şərait yaratdığını məktəb təcrübəsi sübut edir. [4,s.216]

Müasir mərhələdə ədəbiyyat dərslərində interaktiv metodlardan məqsədyönlü istifadə mühüm tələb kimi qoyulur. S.Hüseynoğlunun fikrincə, kurikulum üzrə ədəbiyyat dərslərində bədii əsərlərin təhlilində interaktiv metodların tətbiqi daha səmərəlidir. Tədqiqatçı interaktiv dərsin müxtəlif mərhələlərində bədii əsərlərin ideya- məzmununun , sənətkarlıq xüsusiyyətlərinin təhlili imkanlarını araşdıraraq yazır ki, təhlil dərsində təqdimatlar,qarşılıqlı dinləmələr və müzakirələr aparıcı yer tutur. Tədqiqat prosesində əldə edilmiş biliklərin, məlumatların mübadiləsi qazanılmışlarm ümumi mənzərəsi barədə təsəvvür yaratmaqla bərabər, həm də ciddi kəm-kəsirlərin olduğunu da aşkara çıxarır. Müəllim bu məqamda şagirdlərin diskussiya aparmalarını, öz mülahizələrini tam sərbəst söyləmələrini, özlərini müzakirənin bərabərhüquqlu iştirakçısı kimi hiss etmələrini təmin etməli, onların əvəzinə danışmamalıdır.

Bədii əsərin təhlilinə həsr olunan dərsin nəticə və ümumiləşdirmə mərhələsində şagirdlərin qarşısında qazandıqları bilikləri ümumiləşdirmək və konkret nəticə çıxarmaq vəzifəsi durur. Belə ki, interaktiv metodların

tətbiqi ilə əldə edilən məlumatları (bilikləri) birləşdirən fikirlər, ideyalar aydınlaşdırılır və onların yoxlanılan fərziyyəyə nə dərəcədə uyğun olduğu müəyyənləşdirilir. [3, s.26-27]

**Metodik ədəbiyyatda şagird qavramasının öyrənilməsinin bədii təhlilin əsas istiqamətinin, təhlil yollarının müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd olunur. Əsərin ilkin qavranılmasının öyrənilməsi zamanı şagirdlərə də əsər barədə mülahizələrinin natamamlığı, müəyyən məsələlərin, mühüm məqamların diqqətdən yayınması aydın olur. Beləliklə, şagirdlərdə bədii mətnin dərindən təhlilinin zəruriliyi fikri yaranır. Bütün bunlara əsaslanaraq müəllim bədii əsərin təhlilində hansı yolun seçiləcəyini, diqqətin hansı hansı məsələlər üzərində cəmləşdiriləcəyi fikrini dəqiqləşdirir. Bədii təhlilin müxtəlif yollarından əlaqəli istifadə ədəbiyyat tədrisinin məzmununu yeniləşdirir, qəlib və şablonları aradan qaldırır, məktəblilərin bədii əsərlərin təhlilində analitik fəaliyyətinə imkan verən oxucu marağının yaranmasına və qorunub saxlanmasına kömək edir.**

Ədəbiyyat dərslərində kiçik həcmli əsərlər - hekayə, lirik şeirlər bir çox səviyyələrdə təhlil edilir. İrihəcmli, mürəkkəb əsərləri isə bir səviyyədə dərindən təhlil etmək daha məqsədəuyğundur.Bu zaman təhlil elə aparılmalıdır ki, müxtəlif formalar və üsullardan istifadə zamanı əsərin bütövlüyünə xələl gəlməsin, əsərin bütöv bir orqanizm kimi dərk olunması təmin edilsin. [2, s.190]

**Tədqiqatçı ədəbiyyat dərslərində bədii əsərlərin təhlilinin üç əsas yolunu qeyd edir:**

**1. Müəllif arxasınca təhlil (əsərin bütövlükdə təhlili);**

**2. Obrazlar üzrə təhlil;**

**3. Problem-mövzu üzrə təhlil.**

**Müəllif arxasınca təhlilin əsasında əsərin süjet xətti, əsas hadisə, epizod üzrə iş durur. Bu zaman təhlil sanki əsərin mütaliəsi prosesini daha mürəkkəb formada təkrar edir, şagirdlər təsvir edilənləri, qəhrəmanların hərəkətlərini, hadisə və əhvalatları ardıcıllıqla araşdırırlar. Beləliklə, əsas epizodlar, qəhrəmanların davranış motivləri, təbiət təsvirləri, müəllif şərhləri diqqət mərkəzində saxlanılmaqla əsərin məzmun və forma vəhdətində qavranılması təmin edilir.**

**Əsərin obrazlar üzrə təhlili yolundan məktəb təcrübəsində geniş istifadə olunur.**

Həyatı obrazlı şəkildə əks etdirən bədii ədəbiyyatın mərkəzində insan, onun həyatı, taleyi durur. Bədii ədəbiyyat həyat həqiqətləri ilə sıx bağlıdır. Yazıçı bədii əsərdə canlı insan surətləri yaradır, real həyatın həqiqi və səciyyəvi mənzərələrini əks etdirir.

Əsərdə sənətkarın hadisələrə, qəhrəmana münasibəti öz ifadəsini tapır.

Belə ki, burada hadisənin, qəhrəmanın hərəkətlərinin, taleyinin yazıçıda doğurduğu düşüncələr, həyəcan, hiss və duyğular, sevinc, kədər, heyrət və s. əks olunur. Sənətkar insanı öz ictimai ideallarına uyğun şəkildə təsvir edir.

**Problemli təhlilin əsasında əsərin ideya-məzmunundan irəli gələn, şagirdlərdə maraq doğuran, düşündürücü sualların qoyulması durur. Şagirdləri müstəqilliyə, düşünməyə sövq edən hər sualı problemli saymaq olmaz. Problemli suallar məsələnin həlli yolları barədə müxtəlif fikirlərə, fərqli cavabların söylənilməsinə, nəticə etibarilə problemli situasiyanın yaradılmasına gətirib çıxarmalıdır. Problemli situasiya şagirdlərin əsərdə qaldırılan problemlər, müəllifin mövqeyi, yaradıcılıq özünəməxsusluğu ilə bağlı müxtəlif fikirlər söyləməsi, öz hökmlərini əsaslandırması zəminində həyata keçirilir. [2, s.191-193]**

Metodist alim F.Yusifov yazır ki, ədəbi əsərlərin öyrənilməsində ən mühüm mərhələ onun təhlil olunmasıdır. Ədəbi təhsilin qarşısına qoyulan mühüm işlər məhz həmin mərhələdə reallaşır. Əsərin məzmununda əksini tapan məsələlər - əxlaqi-mənəvi dəyərlər, müsbət insani keyfıyyətlər, çatışmazlıqların tənqidi və s. bu əsərlərdə öz əksini tapır. Şagirdlərdə onları müşahidə etmək, duymaq, qiymətləndirmək bacarığının formalaşdırılması bu gün vacib işlər sırasındadır. Bunsuz gənc nəslin yüksək mənəvi dəyərlər ruhunda böyüməsində heç bir irəliləyiş əldə etmək olmaz. Tədqiqatçı diqqəti bədii əsərlərin məzmununun öyrədilməsinə həsr olunan dərslərin induktiv, təhlil dərslərinin drduktiv olmasına cəlb edir. [5., s.297]

Tədqiqat göstərir ki, bədii mətnin təhli yollarının müəyyənləşdirilməsi, tətbiq ediləcək interaktiv metodların dəqiqləşdirilməsi probleminə fərqli yanaşmaların olması təbiidir. Bu, bədii əsərin təhlili prosesinə yaradıcı yanaşma zərurətindən yanan bir prosesdir. Məhz bu baxımdan metodik axtarışlar davam etdirilməli, bədii mətnin təhlili üzrə dərslərdə yeni təlim texnologiyaların tətbiqi imkanları üzrə araşdırmalar davam etdirilməlidir. Bu istiqamətdə tədqiqatların həm nəzəri, həm də praktik əhəmiyyəti vardır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni kurikulumu (V-XI siniflər. Az. müəllimi 24 dek 2010 N 50.
2. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016.452 s.
3. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: Fəal/interaktiv təlim. Bakı, 2009. 200s.
4. Mikayılov Ş., Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. Bakı:Naksuana, 2008. 478 s.
5. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2018. 349 s.

Эршадлы Ш.

## Методические подходы к анализу художественных произведений на уроках литературы по куррикулуму

### Резюме

Большинство часов занятий, посвященных организации обучения в отдельных классах по учебной программе по литературе, непосредсвенно предназначены для анализа художественных произведений. В куррикулуме отмечается, что учащиеся должны уметь анализировать схожие и отличительные особенности устной и письменной литературы на конкретных примерах, обосновать свои мысли проводя сравнения и анализировать литературные произведения с точки зрения содержания и идеи, мастерства, характеристик персонажей. Стандарты 1.2.2, 1.2.2, 1.2.3, 1.2.4 определяють основные направления работы по анализу литературных текстов в куррикулуме по литературе. Таким образом, анализ темы и идеи произведения, системы образов, основной проблемы, особенностей художественного мастерства, жанровых характеристик должен быть обеспечен путем организации работы над соответствующими вопросами и заданиями на уроках литературы.Исследование показывает, что существуют разные подходы к проблеме определения путей анализа художественного текста и проблеме выбора интерактивных методов для этих уроков. Процесс анализа художественных произведений требует творческого подхода учителя. С этой точки зрения следует продолжить методологические поиски и изучение возможностей применения новых технологий обучения на уроках анализа художественного текста. Исследования в этом направлении имеют как теоретическое, так и практическое значение.

**Ershadli Sh.**

## Methodical approaches to the analysis of works of art in curriculum literature classes

### Resume

Most of the hours of classes devoted to the organization of studies in individual classes in the curriculum for literature are directly intended for the analysis of works of art. The curriculum notes that students should be able to analyze similar and distinctive features of oral and written literature with

specific examples, substantiate their thoughts by comparing and analyzing works from the point of view of content and idea, skill, literary characters.

Standards 1.2.2, 1.2.2, 1.2.3, 1.2.4 determine the main directions of work on the analysis of literary texts in the curriculum for literature. Thus, the analysis of the theme and idea of the work, the system of images, the main problem, features of artistic skill, genre characteristics should be provided by organizing work on relevant issues and tasks in literature classes.The study shows that there are different approaches to the problem of determining ways to analyze a literary text and the problem of choosing interactive methods for these lessons. The process of analyzing works of art requires a creative approach from the teacher. From this point of view, it is necessary to continue the methodological search and study of the possibilities of applying new learning technologies in the lessons of the analysis of the artistic text. Studies in this direction are of both theoretical and practical importance.

Rəyçi: Yaqub Babayev
Filologiya elmləri doktoru, professor